# 8 ölkə, 13 komanda, 75 idmançı

## "Əziz Şuşa" beynəlxalq velosiped yarışının qalibləri medallar və qiymətli hədiyyələrlə mükafatlandırılıblar

Həftəsonu "Əziz Şuşa" beynəlxalq velosiped yarışının ikinci mərhələsi keçirilib və turnirə yekun vurulub. 8 ölkəni təmsil edən 13 komandadan ümumilikdə 75 idmançının qatıldığı yarışın bu mərhələsi Füzuli Hava Limanından start götürməklə Şuşa şəhərindəki "Qarabağ" hotelinin qarşısında başa çatıb.

Respublika Velosiped Federasiyasından qəzetimizə verilən məlumata görə, idmançılar Prezident İlham Əliyevin tapşırığı ilə inşa edilən Zəfər yolu ilə 71 km məsafədə şose velosipedinin qrup ötüşməsi növündə güclərini sınayıblar. Yarış gərgin və maraqlı idman mübarizəsi şəraitində keçib.

İkinci mərhələnin nəticələrinə görə, Türkiyənin "Sakarya BB Pro Team" klubunun tərkibində yarışan Azərbaycan milli komandasının üzvü Elçin Əsədov (2:27:46) hamıdan çox sürət göstərərək qızıl, Özbəkistanın "Tashkent City" klubunun üzvü Akramjon Sunnatov (2:27:47) gümüş, Monqolustan milli komandasının üzvü İderbold Bold (2:27:48) isə bürünc medal qazanıblar.

İki günün yekunlarına əsasən, komanda proqramında birinci yerə Türkiyənin "Sakarya BB Pro Team" klubu, ikinci yerə Özbəkistanın "Tashkent City" klubu, üçüncü yerə Monqolustan milli komandası çıxıb. Şuşa qalasının önündə keçirilən mükafatlandırma mərasimində qalib idmançıya və komandaya, habelə mükafatçılara kuboklar, medallar və qiymətli hədiyyələr, digər qaliblərə isə medal və qiymətli hədiyyələr təqdim olunub. Bundan əlavə, Azərbaycan Velosiped Federasiyasının adından turnirin qalibi Elçin Əsədova 3 otaqlı mənzil hədiyyə edilib.









İdmançılara mükafatları Azərbaycan Respublikasının müdafiə sənayesi naziri, Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev, Azərbaycan Respublikası gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Respublikasının Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov, gənclər və idman nazirinin müavini Mariana Vasileva, AVF-nin vitse-prezidenti Robert Eyyubov təqdim ediblər.

Xatırladaq ki, yarışın birinci mərhələsi Bakının Pirallahı rayonunda Nərəkənd parkının yaxınlığında fərdi ötüşmə növü üzrə keçirilib. Bu mərhələdə velosipedçilər 21 km məsafə qət ediblər. İlk yarış gününün qalibi də Elçin Əsədov olub.

Qeyd edək ki, yarış Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Velosiped Federasiyası və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə Nazirlər Kabinetinin təsdiqlədiyi, "Şuşa ili"nə həsr olunmuş tədbirlər çərçivəsində keçirilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.-2022.-14 iyul.-S.11.